

# Bakıda Azərbaycan-Polşa biznes forumu keçirilib

*Mayın 31-də Bakıda Heydər Əliyev Mərkəzində Azərbaycan-Polşa biznes forumu keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Polşa Respublikasının Prezidenti Andjey Duda biznes forumunda iştirak ediblər. Dövlət başçıları biznes forumda nitq söylədilər.*

Səh.3

24 səhifə
Həftəlik qəzet

# UNİKAL

№29 (1968) 1 iyun 2019-cu il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru



# Rövnəq Abdullayevə "Azəriqaz" xəbərdarlığı...

*Xatırlatmağa və ya xüsusi olaraq vurğulamağa ehtiyac yoxdur ki, "Azəriqaz" son illərdə vətəndaşların ciddi şəkildə narazı olduğu, mətbuat səhifələrindən sosial şəbəkələrdən haqqında ən çox giley-güzar etdiyi, şikayətlərini, kəskin tənqidlərini dilə gətirdiyi qurumların başında gəlirdi. İş o yerə çatdı ki, ölkə başçısı da adıçəkilən İstehsalat Birliyinin rəhbərliyinə təbii qazın verilməsində yaranan problemlərlə bağlı xəbərdarlıq etdi. Bu il aprelin 30-da Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda dövlət rəhbəri bildirdi ki, şəhərlərdə bəzi yerlərdə qazın təzyiqi aşağıdır və bu məsələ ilə bağlı müvafiq göstərişlər verilib, işlər görülür ki, əhaliyə keyfiyyətli qaz verilsin: "Eyni zamanda, "Azəriqaz" tərəfindən bəzi hallarda əsası olmayan işlərə də son qoyulmalıdır. Çünki mənə məlumat verilir ki, "Azəriqaz" özü birtərəfli olaraq hansısa qaydalar tətbiq edir və bəzi hallarda insanlara problemlər yaradır. Buna son qoyulmalıdır və burada maksimum şəffaflıq, ədalət olmalıdır.*

Səh.12

Səh.2



# Milli Məclisdən erməni təxribatına sərt cavab

## "Ceyhun Bayramov nazir olandan sonra heç bir dəyişiklik edə bilmədi"



*Son illər təhsil sahəsində problemlərin artığı göz önündədir. Ceyhun Bayramovun nazir təyinatından sonar təhsildə müsbət istiqamətdə dəyişikliklərin olacağı gözlənilsə də, son dövrlər baş verənlər bütün ümidləri suya düşürdü. Təhsil üzrə ekspert Elşən Qafarov "Unikal" qəzetinə müsahibəsində təhsildəki ciddi problemlərə toxunub.*

Səh.4

## "Biz öz işimizlə, yüksək səviyyəli tədbirlər təşkil etməklə onlara cavab verdik"



*Mayın 29-da bütün dünyanın Bakı Olimpiya Stadionundan izlədiyi "Çelsi" və "Arsenal" klubları arasında UEFA Avropa Liqasının final oyunu əsl futbol bayramı kimi tarixə keçdi. Son illər bir çox mötəbər turnirlərə ev sahibliyi edən Azərbaycan bir daha dünyaya mükəmməl təşkilatçılıq bacarığını nümayiş etdirdi.*

Səh.13

## "Qarabağda istənilən vaxt döyüşlər bərpa oluna bilər"



*Qarabağ münaqişəsinin həlli ilə bağlı status-kvo hələ də olduğu kimi qalır. Məsələnin həlli istiqamətində aparılan danışıqların nəticə verməməsi, Ermənistan tərəfinin isə münaqişənin dalana dirənməsinə səylər göstərməsi vəziyyəti daha da ağırlaşdırır.*

Səh.7